Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 10(102)-35/2019 18.02.2019

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Mülki Kollegiyasının**

**Q Ə R A R D A D İ**

**«18» fevral 2019-cu il iş № 10(102)-35/19 Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Rüstəmov Əli Məhəmməd oğlunun sədrliyi və məruzəsi ilə, Əhmədova Mehparə Tofiq qızı və Əhmədov Nurməmməd Güləhməd oğlundan ibarət tərkibdə, məhkəmə iclas katibi Cumazadə Ceyhun Rizvan oğlunun katibliyi ilə, Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin X5 pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarının tanınmasına dair işə baxaraq,

**MÜƏYYƏN ETDİ :**

Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarının Azərbaycan Respublikasının ərazisində tanınması ilə bağlı materiallar Ali Məhkəməyə daxil olmuşdur.

Həmin qərar 22 iyul 2015-ci ildə qanuni qüvvəyə minmiş, lakin Azərbaycan Respublikası ərazisində tanınmamışdır.

Tələbkar X3 vəsatətlə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək, Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin X5 oğlundan pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarının Azərbaycan Respublikasında tanınmasını və icraya yönəldilməsini xahiş etmişdir.

Vəsatətə Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin X5 oğlundan pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarının surəti əlavə edilmişdir.

Vəsatətdən görünür ki, X5 ünvan 1 ünvanında qeydiyyatdadır.

Məhkəmə kollegiyası iclasının yeri və vaxtı barədə lazımi qaydada məlumatlandırılmasına baxmayaraq, X5 heç bir üzrlü səbəb göstərmədən məhkəmə kollegiyasının iclasına gəlməmişdir.

Azərbaycan Respublikası MPM-nin 462-ci maddəsinə görə xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında tanına və icra edilə bilər.

Məhkəmə kollegiyası hesab edir ki, Azərbaycan Respublikasının qanunvericiliyinə və hüquq qaydasına zidd olmadığı üçün, habelə «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında» Konvensiyası ilə təminatlandırıldığı üçün Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarının Azərbaycan Respublikasında tanınmalıdır.

Yuxarıda şərh edilənlərə əsasən Azərbaycan Respublikası MPM-nin 462, 463 və 467 maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**QƏRARA ALDİ :**

X2 vəsatəti təmin edilsin.

Belarus Respublikasının Minsk şəhərinin Frunzensk rayon məhkəməsinin pul vəsaitlərinin tutulması haqqında 01 iyul 2015-ci il tarixli qərarı Azərbaycan Respublikasının ərazisində tanınsın.

**Sədrlik edən:** **Əli Rüstəmov**
**Hakimlər:** **Mehparə Əhmədova**
**Əhməd Nurməmmədov**

**Əsli ilə düzdür:**

**Azərbaycan Respublikası**

**Ali Məhkəməsinin hakimi** **Əli Rüstəmov**